**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.2.183**

**NƏSİBƏ CƏFƏROVA***

## QƏLBİ MUSİQİ İLƏ DÖYÜNƏN ALİM

*Məqalə görkəmli musiqişünas, folklorşünas, pedaqoq, saz-söz ustası ,sufiliyi özünə başlıca meyar hesab edən filologiya üzrə fəlsəfə doktoruna həsr olunub. Bir çox Şərq və Qərb ölkələrində işgüzar səfərlərdə olmuş, konsertlər, ustad dərsləri vermiş, dəfələrlərlə elmi konfrans və simpoziumlarda iştirak etmişdir. Yerli və xarici elmi jurnallarda çoxlu sayda məqalələri, eləcə də dövri mətbuatda mindən yuxarı fəlsəfi-publisistik yazıları, dərslikləri, tədris vəsaitləri, bir çox kitabları dərc edilmişdir. O, Azərbaycan elminə və musiqi təhsilinin inkişafına xidmət edir.*

***Açar sözlər:*** *musiqişünas, ozan-saz, sufi, aşıq, Fəxrəddin Baxşəliyev.*

### Giriş

O, ünsiyyətdə olan hər bir insana, məsləhətləriylə qəlbində yaradıcılıq sevgisi yaradan alimdir. Gənclərə güclü olub, sərbəst fikirli olmağı, müstəqil düşünməyi öyrədir. Musiqisiz yaşaya bilməyən, daim yeni fikirlər axtaran, yeni layihələr üzərində çalışan filologoya üzrə fəlsəfə doktoru, dosent Fəxrəddin Baxşəliyevin mənim həyatımda mühüm və danılmaz rolu vardır. Dissertantura mərhələsində onun tələbəsi olaraq, məni elm sahəsində düzgün istiqamətləndirmişdir.

### Əsas təhlil

Mənim Fəxrəddin müəllimlə tanışlığım 2015 - ci ilə təsadüf edir. O, zaman mən Azərbaycan Milli Konservatoriyasının 4 kursunda təhsil alırdım. Fəxrəddin müəllim haqqında tələbələrdən eşidirdim ki, çox maraqlı dərs keçmə metodu var. Bu fikirlər mənim marağıma səbəb oldu və Fəxrəddin müəllimdən icazə alaraq onun dərslərində iştirak etməyə başladım. Həmin gün çox təsirlənmişdim, sanki, ürəyimdəki musiqi, yaradıcılıq hissi yenidən baş qaldırmışdır. Hər gün maraqla dərslərə gəlir, çox diqqətlə onu dinləyirdim. Artıq ,iki il keçmişdi mən magistr pilləsində təhsilimi davam etdirirdim, o, bizə "Türk xalqlarının mifologiyası" fənnindən dərs keçməyə başladı. Sənətinə vurğun müəllim kimi, Fəxrəddin müəllim, biliklərini tələbələrlə bölüşürdü.

Ondan aldığım aydın faydalı məsləhətlər mənə musiqi elmini dərindən yiyələnməyimə çox böyük kömək olmuşdur. Müəllimlərimizdən aldığımız biliklər yaddaşda həmişəlik qalır və onlardan öyrəndiklərimiz, bizim pedaqoji fəaliyyətimizə müsbət təsirini göstərir.

O cümlədən, Fəxrəddin müəllim bizə xeyirxahlığı, sadə, təvəzökar, obyektiv, ədalətli olmağı öyrədirdi.

Baxşəliyev Fəxrəddin Elşad oğlu ( Salim) 1969- cu il sentyabrın 10-unda Azərbaycanın gözəl guşələrindən biri olan Naxçıvan Muxtar Respublikası, Şahbuz qəzasının Kükü kəndində dünyaya göz açmışdır. İlk orta təhsilini, Naxçıvan şəhər Hüseyn Cavid adına 8 illik 5 saylı orta məktəbində almışdır. Orta məktəblə bərabər balaca Fəxrəddin musiqi məktəbinin tar sinfində də təhsil alır. 1984-cü ildə Naxçıvan Musiqi Kollecinə daxil olmuş, 1988-ci ildə oranı bitirərək, hərbi xidmətə yollanmışdır.

1990-cı ildə təhsilini Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının X.Ç.A. kafedrasını tar ixtisası üzrə davam etdirir və buranı 1995-cı ildə uğurla bitirir.

Yaradıcılığı boyu Fəxrəddin Baxşəliyev musiqimizin dəyərlərini bir çox ölkələrdə keçirilən konfranslarda, son dərəcədə geniş və zəngin məzmunlu məruzələrlə çatdırmışdır. Onun yaradıcı fikirləri ,yerli və xarici mətbuatda yayımlanaraq, insanların marağına səbəb olur.

Fəxrəddin müəllimin həyat və yaradıcılıq yolunun bir ana xətti vardır - sufilik. Onun bütün düşüncələri və fəaliyyəti bu əsas xəttə xidmət edir, ona istiqamətlənir. F. Baxşəliyev Azərbaycanı, xalqını, dövlətini, onun milli-mənəvi dəyərlərini, xüsusilə də, zəngin musiqi irsini bütün qəlbi və ruhu ilə duyur və sevir. Sevməklə yanaşı, yorulmadan bu, müqəddəs dəyərləri tədqiq və təbliğ edir.

O, aşıq sənətinin tədqiq olunmasına yeni metodoloji baxışlar tətbiq etmiş, bununlada

aşıqşünaslığın inkişafına yeni bir təkan vermişdir.Fəxrəddin Baxşəliyev 2012-ci ildə "Təsəvvüf ənənələri və Aşıq Ələsgər" adlı namizədlik dissertasiyası ilə müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Aktiv elmi-yaradıcılıq fəaliyyətiylə diqqət mərkəzində olan, Fəxrəddin Baxşəliyevin yaradıcılıq həyatı axtarışlarla davam etmişdir.Yerli və xarici elmi jurnallarda çoxlu sayda məqalələri, eləcə də dövri mətbuatda mindən yuxarı fəlsəfi-publisistik yazıları dərc edilmişdir: Buna misal olaraq bir neçə məqalənin adını çəkə bilərik:

"İlahi(nin) sənət(i)"(2011)

"Bir ozanın bəxti" (2011)

"Allah dostu-Qorqud"( 2012),

"Şah Xətai və Azərbaycan sufizmi" (2013),

"Aşıq Ələsgər , Seyid Əzim və təsəvvüf" (2013)

"Ürfani saz" (2013)

"Məqalədə müəllif sazın və aşıq yaradıcılığının məhz bu günə qədər tədqiqat obyektindən kənarda qalan xüsusiyyətlərini, o cümlədən, ürfan və təsəvvüflə sıx bağlılığını araşdırmışdır. Fəxrəddin Salim bu mövzunu ön planda vermişdir. Aşıq sənətinin ən mühüm atributu olan saz, sözdən də, nəfəsdən də, səsdən də artıq ürfani duyğuları əks etdirə bilən bir incəsənət ünsürüdür.
Milli mənəvi duyğuların təzahür forması kimi, xalqın çox əsrlik mədəniyyətinin təbliğat vasitəsi kimi aşıq musiqisinin araşdırılmasında Fəxrəddin Baxşəliyevin (Salimin) mühüm rolu vardır". (Fəxrəddin Salim Ürfani saz 2.s.11)

"Dədəm Qorqud –Pirim, mürşidim" (2014)

"Saz sənətinin Azərbaycan sufizmdəki yeri və mövqeyi" ( 2016)

"Sonsuzluğun sonu və əriyən saatlar" (2018).

**"Milli məqamların əmələ gəlməsində qeydi temperasiyalı quruluşun təhlilinə dair" (2018)**

**"Yaşıl şəhərin məqamları" ( Özbəkistanda keçirilmiş " Beynəlxalq makom simpoziumu"ndan təəssüratlar (2018)**

Bu simpozium haqqında Fəxrəddin müəllim təssüratlarını bölüşərkən bu fikirləri söylədi:
"Bu simpoziumdakı müxtəlif ölkələrin sənətçi və alimlərinin çıxışları bir ömür yaddaşımda qalacaqdır. Xüsusiylə də Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynovanın konfransdakı çıxışı bu gözəl qürbətdə mənə çox şeyi öyrətdi." (Fəxrəddin Salim **"Yaşıl şəhərin məqamları" ( Özbəkistanda keçirilmiş " Beynəlxalq makom simpoziumu"ndan təəssüratlar 3,**s.82)

**"Musiqidə kvant təxminləri"(2019**)

"Bu məqalədə kvant mexanikası ilə musiqi arasındakı qəribə və gözlənilməz əlaqələrdən söhbət açılır. Kvant fizikasının ana mövzusu olan mikro aləmdəki qeyri-müəyyənlik və qeyri-səlisliyin musiqidəki və xüsusilə də Şərq məqam musiqisindəki, eyni zamanda təsəvvüf-sufi fəlsəfəsindəki qarşılıqları və təzahürləri araşdırılır. (Fəxrəddin Salim "Musiqidə kvant təxminləri" 4, s.21)

**"Qizil Orda toplaqlarında" (2019)**

**"Divani-musiqi" (2019)**

**"Şərq məqaları və şərq ritmləri" (2019)**

**"Aqibət" (2019)**

**"Ən təhlükəli basqı fəlsəfi basqıdır" (2020)**

**"Üç AYN" (2020)**

**"Türk xalqlarının milli mənəvi dəyərləri sırasında ozanlıq anlayışı" (2020)**

**"Robert Şumanın gənc musiqiçilərə tövsiyələri" (2020)**

**"Cənab do diyez minor" (2020)**

Çox şaxəli yaradıcılığı ilə seçilən müəllim həm da saz söz ustasıdır.

Azərbaycan və Anadolu sazında, eləcə də İran tənburunda, Xorasan dütarında, udda, cünbüşdə və digər musiqi alətlərində ifa edərək, həmin alətlər üçün musiqi əsərləri də bəstələmişdir.

Fəxrəddin Salim bir çox kitabların müəllifidir.

**"Milli yaddaş sistemində ürfan və təsəvvüf"(2010) – monoqrafiya**



**“Ozan-aşıq yaradıcılığı tarixi-fəlsəfi kontekstdə” (2013)**
**“Eşq risaləsi”(2014) – fəlsəfi traktat**
**“Simurğ” – saz və vokal üçün bəstələr (2019) (not albomu)**(Nəsiminin sözlərinə “Vəhdət” in not nümunəsi)

VƏHDƏT

söz: İ.Nəsimi



**“Dədə Qorquddan Dədə Ələsgərə” ( 2021) – monoqrafiya**

Aşıq musiqisi onun yaradıcılığının mühüm hissəsini təşkil edir.

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında 18 fevral 2021-ci il tarixli Sərəncam vermişdir. Bu sərəncamdan sonra Fəxrədin Baxşəliyev(Salim) “Dədə Qorquddan Dədə Ələsgərə” kitabını yazır. Kitabda Azərbaycan tarixinin ədəbiyyatımızda silinməz izlər qoyan böyük bir dövrünün – Dədə Qorquddan Dədə Ələsgərə qədərki dövrün saz-söz ustadlarının yaradıcılığı haqqında dolğun və aydın bir mənzərə yaradılıb. Ədəbiyyat və musiqişünas alim Fəxrəddin Salimin uzun illər axtarışları nəticəsində yazdığı bu əsərin tarixi əhəmiyyəti var.” (Fəxrəddin Salim Dədə Qorquddan Dədə Ələsgərə 6,s.3)

Onu da qeyd edim ki, o həmdə bəstəkardır. İ.S.Bax və F.Şopen yaradıcılığını sevən, dərindən öyrənən alim bir çox əsərlər yaratmışdır. Onu tanımadan yaradıcılığına baxmaq bəs edir ki, onun qəlbinin necə həssas, kövrək, yaradıcı, musiqiylə döyündüyünü hiss edəsiniz. Fəxrəddin Baxşəliyev, xor və simfonik orkestr üçün İran şairi Nasir Xosrovun farsca “Bahariyyə” qəzəlinə bəstələnmiş “Messa”nın, L.V. Bethovenin 250 illik yubileyi ilə əlaqədər bir simfoniyanın, fortepiano pyeslərinin və romansların müəllifidir.

O, həm də təvazökar şairdir. Ürəkdən gələn sözlərini qələmə alaraq müxtəlif illərdə iki kitab yazmışdır.

“İsmi-Əzəm” – şeirlər kitabı (2002-ci ildə)

“Rübai divanı” – şeirlər kitabı ( 2013-cü il)

Bir çox Şərq və Qərb ölkələrində, o cümlədən, Türkiyədə, İranda, Pakistanda, Misirdə, Fransada, Almaniyada, Hollandiyada, Norveçdə və ABŞ-da işgüzar səfərlərdə olmuş, konsertlər, ustad dərsləri vermişdir. Eləcə də Qazaxıstan, Özbəkistan, Tatarıstan kimi ölkələrdə dəfələrlərlə elmi konfrans və simpoziumlarda iştirak etmişdir.

Müəyyən illərdə Türkiyədə işləmişdir. İşlədiyi dövrdə tələbələrin hazırlıq səviyyəsini qaldırmaq üçün əlindən gələni əsirgəməmişdir. Lakin xaricdə, yaşadığı müddətdə vətən həsrəti onun Azərbaycana (Azərbaycan Milli Konservatoriyası) gəlməsinə səbəb olur.

Hal hazırda Azərbaycan Milli Konservatoriyasında “İnstrumental muğam” kafedrasında saz ixtisası və “ “Milli musiqinin tarixi və nəzəriyyə”si kafedrasında nəzəri fənlər üzrə, eləcə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində “Tarix- nəzəriyyə” kafedrasında əruz vəzni fənnindən dərs deyir.

Fəxrəddin Baxşəliyev Azərbaycan Milli Konservatoriyasında seminar və konsertlərdə dəfələrlə uğurlu çıxışlar etmişdir.

Azərbaycan Milli Konservatoriyasında Fəxrəddin Salim və tələbələrinin 2016-ci ildə ‘İlahi və Türkülər, 2017-ci ildə isə “Azərbaycan Sufi musiqisi” adlı konserti keçirilib.

Konsertdə Fəxrəddin Salim tərəfindən Azərbaycan görkəmli şairlərinin (İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, Ə.Vahid) qəzələrinə yazılmış musiqilər səslənib. Salimin saz alətində ifa etdiyi musiqiləri böyük maraqla qarşılanıb.

Fəxrəddin Baxşəliyevin (Salimin) 2022- ci il aprel ayının 23 “Mistik –sufi dünyagörüşü ilə milli musiqinin janrlarının tarixi və nəzəri əlaqə prinsipləri” mövzusunda elmi seminarı keçirilmişdir.

**Nəticə**

Fəxrəddin müəllim yorulmadan, yazır, yaradır. Çünki, musiqi ictimaiyyəti ondan yeni əsərlər, yeni tədqiqatlar gözləyir. Onun rəhbərlik etdiyi doktorant və dissertantlarla fikir mübadilələri, diskusiyaları, ondan aldıqları yaradıcı məsləhətləri nəticəsində gənc alimlərin dissertasiyaları uğurlu nəticələr əldə edir. Fəxrəddin müəllimə sənətində yaradıcılıq uğurları arzulayırıq.

**ƏDƏBİYYAT**

1.Fəxrəddin Salim Rübai Divanı / Bakı. YEK Production, 2013 . 174 s.

2. Fəxrəddin Salim Ürfani saz // Bakı.Kaspi, 2013.№3.s.11.

3.Fəxrəddin Salim “Yaşıl şəhərin məqamları” ( Özbəkistanda keçirilmiş “ Beynəlxalq makom simpoziumu”ndan təəssüratlar. // Bakı. Konservatoriya, 2018 №3/ 41 s.82-84

5.Fəxrəddin Salim Musiqidə kvant təxminləri // Bakı. Konservatoriya, 2019 №1 s.21-41
6.Fəxrəddin Salim Dədə Qorquddan Dədə Ələsgərə / Bakı.Şərq-Qərb, 2021 662 s.

***Azərbaycan Milli Konservatoriyasının dissertantı**
**E-mail:ceferova-nesibe@mail.ru***

**Nasiba Jafarova**

**SCIENTIST WHOSE HEART BEATS WITH MUSIC**

The article is dedicated to a prominent musicologist, folklorist, pedagogue, lyricist, doctor of philosophy in philology, who considers Sufism as his main criterion. He has been on business trips to many Eastern and Western countries, given concerts, master classes, and repeatedly participated in scientific conferences and symposiums. Numerous articles have been published in local and foreign scientific journals, as well as more than a thousand philosophical and journalistic articles, textbooks, teaching aids and many books in periodicals. It serves the development of Azerbaijani science and music education.

**Keywords:** *musicologist, poet, Sufi, ashug, Fakhraddin Bakhshaliye*

**Насиба Джафарова**

**УЧЕНЫЙ, СЕРДЦЕ КОТОРОГО БЬЕТСЯ ПОД МУЗЫКУ**

Статья посвящена выдающемуся музыковеду, фольклористу, педагогу, лирику, доктору философии по филологическим наукам, основным критерием которого считает суфизм. Он был в командировках во многих странах Востока и Запада, давал концерты, мастер-классы, неоднократно участвовал в научных конференциях и симпозиумах. Опубликованы многочисленные статьи в местных и зарубежных научных журналах, а также более тысячи философских и публицистических статей, учебники, учебные пособия и множество книг в периодических изданиях. Он служит развитию азербайджанской науки и музыкального образования.
**Ключевые слова:** *музыковед, поэт, суфий, ашуг, Фахраддин Бахшалиев*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.05.2024**
**Son daxilolma tarixi:21.06.2024**